# RÜBLÜK İCMAL

*“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”*




İCMAL

**DÖVLƏT PROQRAMI MƏZUNLARININ UĞURLARI**

**TƏDBİRLƏR VƏ NAİLİYYƏTLƏR**

**MÜKAFATLAR**

## RÜBLÜK İCMALIN MƏQSƏDİ

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” təqaüdçüləri təhsil aldıqları ali məktəblərdə yüksək akademik göstəricilər nümayiş etdirməklə yanaşı, eyni zamanda Azərbaycan tarixi və mədəniyyətinin təbliğində, Dağlıq Qarabağ münaqişəsi və ölkəmiz üçün digər əhəmiyyətli mövzular ətrafında dünya ictimaiyyətinin məlumatlandırılmasında mühüm rol oynayırlar. 2014-cü ildən Təhsil Nazirliyi Dövlət Proqramı çərçivəsində təhsil alan və məzun olmuş təqaüdçülərin uğurlarının və müvəffəqiyyət hekayələrinin ictimaiyyətə çatdırılması üçün yeni "Rüblük İcmal” layihəsini təqdim edir. Rüblük İcmalın bütün buraxılışları ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz: **http://xaricdetehsil.edu.gov.az/cdphaqqinda/rblkicml/**

# YENİ TƏYİNAT

“2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”



Dövlət Proqramı çərçivəsində İtaliyanın "Academia Teatro Alla Scala Ballet School" ali təhsil müəssisəsindən "Vokal ifaçılıq" ixtisası üzrə məzun olmuş Fidan Hacıyeva (Naylor) Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əmrinə əsasən, Ə.Bakıxanov adına 6 nömrəli uşaq musiqi məktəbinin direktoru təyin edilib. Bu münasibətlə Dövlət Proqramı məzununu təbrik edir və ona gələcək fəaliyyətində uğurlar arzu edirik!

# YENİ TƏYİNAT

RÜBLÜK İCMAL



## FARİZ QULİYEV

Cari ilin avqust ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Dövlət Proqramı çərçivəsində Kanadanın Alberta Universitetin "Təbii resurslar, enerji və ətraf mühit" ixtisası üzrə magistratura təhsili almış Fariz Quliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin İdarə Heyətinin üzvü təyin olunmuşdur. Qeyd edək ki, F.Quliyev bundan öncə Azərbaycan Dövlət İqtisad Universitetinin Biznes Məktəbində baş müəllim olaraq çalışmışdır. Yeni təyinat münasibətilə məzunu təbrik edir və ona gələcək karyerasında uğurlar arzu edirik!




# Best Overall Paper

**International Food Marketing Research Symposium**

*"Convex self-control Cost and Calorie Information"*

by Marco A Palma, Samir Huseynov, & Ghufran Ahmad

Mark Lang, PhD
President, Institute of Food Products Marketing

Sippy Downs, AU
June 12th-13th, 2019



## MƏZUNLARIN UĞURLARI

*Rüblük icmal*
*İyun-Avqust 2019*

Dr. Palma və Dövlət Proqramı çərçivəsində ABŞ-ın "Texas A&M University" ali təhsil müəssisəsində "İqtisadiyyat" sahəsi üzrə doktorantura təhsili almış laboratoriya rəhbəri Samir Hüseynovun tədqiqat işi bu yay Avstraliyada keçirilmiş Beynəlxalq Marketinq Tədqiqatı Simpoziumunda ən yaxşı tədqiqat işlərindən biri seçilmişdir.







"BİZ ƏSL ORQANİK QƏLYANALTILAR HAZIRLAYIRIQ!"

# DÖVLƏT PROQRAMI MƏZUNUNUN LAYİHƏSİ

Ləman Abdullayeva (Xəlilzadə)
"Texas A&M University" ATM
"İnsan resurslarının idarəolunması" ixtisası üzrə magistratura təhsili

**Layihə haqqında ətraflı>**
**Rəsmi internet səhifəsi: http://fitdiet.az/**
**Instagram səhifəsi: https://www.instagram.com/fitdiet.az/**

Dövlət Proqramı çərçivəsində təhsil almış Ləman Abdullayevanın "Fitdiet.az" layihəsi haqqında sizlərə məlumat vermək istərdik. Layihənin məqsədi ölkədə sağlam, ağ şəkərsiz, kimyəvi qatqısız tam təbii tərkibə malik daşına bilən çərəzlərin istehsalıdır.
Layihə rəhbəri qeyd edi ki, bu sosial biznesin əsas konsepti BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən 3-cüsü olan "Yaxşı səhiyyə və rifah"-a (UN Sustainable Goals, Goal #3- Good Health and well being) uyğun olaraq yaşından asılı olmayaraq hər kəsə sağlam qidalanmaq imkanı yaratmaqdır. Sosial biznes olaraq, eyni zamanda şirkətdə hal-hazırda yaşı 55-i keçmiş xanımlar çalışır, onların sayını da şirkət böyüdükcə artırmaq məqsədi daşıyırlar. Aqrar sektorla əlaqələri isə Quba, Qax, Zaqatala və sair kimi regionlardan xammal qismində quru meyvə və çərəzləri əldə etməklə baş tutur. Nailiyyətlərə gəldikdə isə ilk olaraq bu layihə ilə Amerikada "3Day Startup" layihəsində çıxış etmişlər, Vətənə dönəndən sonra isə burada real addımlar atmağa başlamışlar. Deloitte şirkətinin MDB ölkələri arasında keçirdiyi "UP2Start" yarışmasında 120 layihə arasında 2-ci yeri qazanmışlar. Ən son olaraq isə Youth İNC. tərəfindən həyata keçirilmiş "Women Enterpreneurship 2019" yarışmasında L.Abdullayeva layihənin "İlin ən gənc sahibkar xanımı" qismində qalib gəlmişdir.







# Dövlət Proqramı Məzunları "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" yubiley medal ilə təltif olunub

Cari ilin avqust ayında Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) Prezident İlham Əliyevin Sərəncamına əsasən "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmiş əməkdaşlarına medalların təqdimetmə mərasimi keçirilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə BMTM-in əməkdaşları, eyni zamanda Dövlət Proqramı çərçivəsində ABŞ-ın "Columbia University" ali təhsil müəssisəsindən magistratura səviyyəsi üzrə məzun olmuş Fuad Çıraqov və Böyük Britaniyanın "School of Oriental and African Studies" ali təhsil müəssisəsindən doktorantura səviyyəsi üzrə məzun olmuş Əfsanə Məmmədova da "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif ediliblər.

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin cari ilin iyul-avqust aylarında imzaladığı müvafiq sərəncamlara əsasən Dövlət Proqramı çərçivəsində təhsil almış bir qrup gənc "Tərəqqi" medalı, "Dövlət qulluğunda fərqlənməyə görə" medal və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunmuşlar. Məzunlarımızı təbrik edir və onları sizlərə təqdim edirik:

**Əli Əhmədov**

"Tərəqqi"medalı

"John Hopkins University" (ABŞ)
"Dövlət siyasəti" ixtisası üzrə magistratura təhsili
AR Mərkəzi Bankı/Bazar əməliyyatları idarəsinin rəhbəri





**Ramil Abbəkirov**

"Tərəqqi"medalı

"Université de Toulouse" (Fransa)
"İqtisadiyyat" ixtisası üzrə magistratura təhsili
AR Mədəniyyət Nazirliyi/
Beynəlxalq əməkdaşlıq şöbəsi-baş məsləhətçi

**Tale Əliyev**

"Diplomatik xidmətdə fərqlənməyə görə" medal

Bristol Universiteti (Böyük Britaniya)
"Dövlət siyasəti" ixtisası üzrə magistratura təhsili
AR Xarici İşlər Nazirliyi/attaşe



RÜBLÜK İCMAL

# TƏLTİFLƏR

*"2007-2015-ci illərdə Azərbaycan Gənclərinin Xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"*

---

**ARAZ BAĞIRLI**

"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"medalı

"Hochshule Bremen" ATM (Almaniya)
"Turizm" ixtisası üzrə magistratura təhsili
AR Mədəniyyət Nazirliyi/Elektron marketinq üzrə işçi qrupunun üzvü





**Aygün Babazadə**

"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu"medalı

Qlazqo Universiteti (Böyük Britaniya)
"Turizm, mədəni irs və inkişaf" ixtisası üzrə magistratura təhsili
AR Mədəniyyət Nazirliyi/Tədbirlər, mədəniyyət və əlaqələr üzrə menecer




# “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”

**İYUN-SENTYABR 2019**

## RÜBLÜK İCMAL

*Hörmətli Dövlət Proqramı təqaüdçüləri, Rüblük icmalın növbəti buraxılışlarında öz uğurlarınızı, nailiyyətlərinizi görmək istəyirsinizsə, müvafiq məlumatları bizimlə paylaşmağınızı tövsiyə edirik.*

**Nərmin Bağırova**
**(narmin.baghirova@edu.gov.az)**

**Aysel Kərimli**
**(aysel.karimli@edu.gov.az)**

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı Məzunlar Şəbəkəsi/State Program Alumni Network

Dövlət Proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycanlı gənclər qrupu